# Ağdərənin Həsənriz və Vəngli kəndlərinə köçən ailələrə evlərin açarları təqdim edilib












Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam edir. Dekabrın 12-də respublikanın müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdərə rayonunun Həsənriz kəndinə yola salınıb. Bu mərhələdə Həsənriz kəndinə 16 ailə - 74 nəfər köçürülüb.

AZƏRTAC xəbər verir ki, Həsənrizə köçən ailələr Tərtər şəhərindəki Bayraq meydanından yola salınıb.

Köç karvanı ilə Ağdərə rayonunun Həsənriz kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub. Açarların təqdim edilməsi mərasimində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktorunun müavini Mahmud Əfəndiyev kəndə köç edən sakinləri təbrik edib, onlara doğma yurdlarında xoşbəxt həyat arzulayıb.

Doğma yurda qayıdan Ağdərə rayon sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər.

Həsənrizə qayıdan sakinlərə ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Tanımadıqları naməlum əşyalardan və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları zaman aidiyyəti qurumlara xəbər vermələri tövsiyə olunub.

Keçmiş məcburi köçkünlər 33 ildən sonra doğma torpaqlara qayıtmalarının sevincini yaşayıb, evlərində məskunlaşıblar.

Qeyd edək ki, Həsənriz kəndində bərpa edilən fərdi yaşayış evlərində keçmiş məcburi köçkünlərin məskunlaşması üçün bütün şərait yaradılıb. Kənd fasiləsiz elektrik enerjisi, təbii qaz, içməli su və yüksəksürətli internet xətti ilə təmin edilib.

* * *

Növbəti köç karvanı isə Ağdamdan Ağdərənin Vəngli kəndinə yola salınıb. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata əsasən, bu mərhələdə Vəngli kəndinə 76 nəfərdən ibarət 16 ailə köçürülüb.

Açarların təqdimetmə mərasimindən əvvəl Ümummilli Lider Heydər Əliyevin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktorunun müavini Mahmud Əfəndiyev sakinlərə kənddə bütün zəruri infrastrukturun tam şəkildə hazır olduğu və onların rahat yaşayışı üçün su, qaz, elektrik xətləri, yüksəksürətli internet şəbəkəsinin çəkildiyi, yol infrastrukturunun yeniləndiyi barədə məlumat verib.

Ailələr açarları təhvil alıb, sevinc ilə evlərində məskunlaşıblar.

Azərbaycan.- 2025.- 13 dekabr (№ 263).- S.10.